Səh. 2 Seçkiqabağı vətəndaşı və seçkiqabağı hakimiyyəti – Azər Musaoğlu

Səh. 3 Mehralı Abbasov – Leyla Yusifova

Səh. 5 Sən ey uşaqlıq... – Aytən Fətullayeva

Səh. 6 Böyük rollarda kiçik aktyorlar – Hürnisə Əhmədova

Səh. 3 Dünyanın dəliliyindən bir neçə örnək – Afiq Muxtaroğlu

Səh. 4 GÜRCÜSTANIN ƏN BAHALI UNİVERSİTETLƏRİ

Səh. 7 Xatirələr – Aleksandre Orbeliani



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR 2024-CÜ İL № 16 (211)


# Yeni YOL


Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## 42 XARİCİ ÖLKƏDƏ 60 SEÇKİ MƏNTƏQƏSİ YARADILACAQ




Oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar xarici ölkələrdə 2020-ci il parlament seçkiləri ilə müqayisədə daha çox seçki məntəqəsi yaradılacaq. Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) məlumat yayıb.

Məlumatda bildirilib ki, oktyabrın 26-da 42 xarici ölkədə 60 seçki məntəqəsi xaricdəki Gürcüstan vətəndaşlarına xidmət göstərəcək.

Yeni məntəqələrin açılacağı ölkələr siyahısında Birləşmiş Ərəb Əmirlikləri, Finlandiya, Koreya Respublikası, Yaponiya və Avstraliyanın adları yer alıb.

***“Mərkəzi Seçki Komissiyası Xarici İşlər Nazirliyindən ölkədən kənarda konsulluq qeydiyyatında olan səsvermə hüququna malik 65 min 508 Gürcüstan vətəndaşı haqqında məlumatı yeniləyib”,*** – deyə MSK-nın mətbuat katibi bildirib.

Qeyd edilib ki, qanuna əsasən, xaricdə seçki məntəqəsi konsulluq qeydiyyatındakı ən azı 50 və 3000-dən çox olmayan seçici üçün yaradılır.

Ölkənin seçki qanunvericiliyində xaricdə yaşayan Gürcüstan vətəndaşlarının seçkilərdə iştirakı üçün başqa qaydalar nəzərdə tutulmayıb.

## Aİ-NİN TBİLİSİDƏKİ SƏFİRİ: Aİ GÜRCÜSTANLA VİZA REJİMİNİN LİBERALLAŞDIRILMASINI DAYANDIRA BİLƏR



Avropa İttifaqı Gürcüstanda oktyabrın 26-da keçiriləcək parlament seçkilərinin azad və ədalətli olacağına ümid edir, lakin vəziyyət pisləşərsə, Brüssel bu ölkə ilə viza rejiminin liberallaşdırılmasını dayandıra bilər. Bunu jurnalistlərə Avropa İttifaqının Tbilisidəki səfiri Pavel Herçinski deyib.

***“Gürcüstanda baş verən müxtəlif proseslər Tbilisi ilə Brüssel arasında məsafəni artırıb. Biz bunu tərəfdaş ölkələrlə birlikdə müzakirə edirik. Prosesi izləyirik və ümid edirik ki, seçkilər ədalətli və şəffaf olacaq. Lakin vəziyyət daha da pisləşərsə, Aİ-nin müxtəlif alətlərindən mütləq istifadə edəcəyik. Viza rejiminin liberallaşdırılmasının dayandırılması da onlardan biridir”,*** – deyə Pavel Herçinski bildirib.

Qeyd edək ki, Gürcüstan və Avropa İttifaqı ölkələri arasında vizasız rejim 2017-ci ildə qüvvəyə minib. Gürcüstan 2023-cü ilin dekabrında Aİ üzvlüyünə namizəd statusu alıb.

## PREZİDENT “AMNİSTİYA HAQQINDA ” QANUNU İMZALAYIB



Gürcüstan Prezidenti Salome Zurabişvili parlamentin qəbul etdiyi yüzlərlə məhbusun azad edilməsini nəzərdə tutan “Amnistiya haqqında” qanunu imzalayıb.

Prezident eyni zamanda hakim partiyanın bu təşəbbüsünü seçkiqabağı seçiciləri dolayı yolla ələ almaq kimi qiymətləndirib.

***“Gürcüstan parlamentinin hakimiyyətdə olan partiyanın təşəbbüsü ilə seçkilərdən əvvəl “Amnistiya haqqında” qanunu qəbul etməsi birmənalı olaraq seçiciləri dolayı yolla ələ almaqdır”,*** – prezident administrasiyasının saytında yerləşdirilən məlumatda bildirilib.

Sentyabrın 17-də qəbul edilmiş qanun layihəsinə əsasən, amnistiya Gürcüstanda 5 mindən çox məhbusu əhatə edəcək, onlardan mindən çoxu dərhal azadlığa buraxılacaq, digərlərinin isə həbs müddəti azaldılacaq.

Yerli KİV-lər bildirib ki, hazırkı amnistiya ölkə həbsxanalarında məhbusların sayının azaldılması istiqamətində ilk addımdır. Bu il avqustun 1-nə olan məlumata görə, Gürcüstan həbsxanalarında 10 419 nəfər var.

## LAVROV: RUSİYA GÜRCÜSTAN, CƏNUBİ OSETİYA VƏ ABXAZİYANI BARIŞDIRMAĞA HAZIRDIR



“Gürcüstanın hazırkı rəhbərliyi keçmişi vicdanla qiymətləndirir”. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov BMT Baş Asambleyasının 79-cu iclasının yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, Gürcüstan, Cənubi Osetiya və Abxaziya barışıqda maraqlı olarsa, Rusiya Federasiyası bu məsələdə kömək etməyə hazır olacaq.

“Gürcüstan, Cənubi Osetiya və Abxaziya barışıqda maraqlı olarsa, Rusiya Federasiyası kömək etməyə hazır olacaq”, – deyə Lavrov vurğulayıb.



# SEÇKİQABAĞI VƏTƏNDAŞI VƏ SEÇKİQABAĞI HAKİMİYYƏTİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bu seçkiqabağı nə olan şeydirsə hamını latergiya yuxusundan oyadır, buzları əridir, hərəkətə gətirir; sənəd-sünəd işi yarımçıq qalanlar tozlanmış qovluqlarını qarpızlanmış qoltuqlarına alıb hökumət idarələrini yağır edirlər; yoluna asfalt tələb edən kim, məhləsinə işıq tələb edən kim, su, qaz, kanalizasiya tələb edən kim... Biri əlində kağız qapı-qapı düşüb qonum-qonşudan imza toplayır ki, hökumət sahibsiz itlərə sahib çıxsın. Biri cibində kağız qapı-qapı düşüb iti olmayanlardan hökumətə şikayət toplayır ki, sahibli itlərin sahibləri öz itlərinə sahib çıxsınlar, küçəyə buraxmasınlar, ac saxlamasınlar, yoxsa gələnə-gedənə hücum edirlər, toyuğu-cücəni yeyirlər və sair. Biri məhləsinə zibil yeşikləri qoydurur. Biri başıpapaqlıları çayxanaya toplayıb danlayır ki, gəlin yığılıb gedək meriyadan çayxana üçün tualet tikməyi tələb edək, qarşıdan qış gəlir. Biri başıqapazlıları başına toplayıb məsləhət görür ki, niyə lal-dinməz oturmusunuz, gedin hökumətə başınıza dəyən qapazlardan şikayət edin. Biri başıqotazlıları qandırır ki, fürsətdir, gedin hökumətdən təzə, Avropa standartına uyğun qotaz istəyin. Biri yarımçıq qalmış evini tikməyə başlayır. Biri yarımçıq qalmış tövləsini uçurmağa başlayır. Biri çəpərini hasar edir. Biri yolu cığır edir. Biri üç-dörd ağac əkdiyi yeri özəlləşdirir. Biri əyri burnunun plastik əməliyyatı üçün hökumətdən yardım istəyib özünü gözəlləşdirir. Biri sovetdən qalmış maşınını texniki baxışdan keçirtdirir. Biri Nuh əyyamından qalmış vergisini sildirir. Biri məktəbin, uşaq baxçasının, xəstəxananın yanından "moyka" tikdirir. Biri yolun ortasından "obyekt" tikdirir və beləcə seçkilər qurtarana kimi hamı hardan nə istəyir tikdirə-tikdirə gedir...

Və bu "oyanış", bu qaç-qov, bu uçur-tik, bu gözəlləşdir-özəlləşdir seçkiqabağı baş verir. Yəni: ay filankəs, evimin bünövrəsinin düz dibindən şoğərib bir tut ağacı böyüyür, az qalır evin bir tərəfini qaldırıb uçura, fidan vaxtı fikir vermədik, kökünü kəsmədik, indi kəsmək üçün gərək gedək hökumətdən icazə alaq, yoxsa cərimə ödəməli olarıq. – Ay bəhmənkəs, heç narahat olma, seçkiqabağıdır, nə qədər ki fürsətdir, kəs o tut ağacını. Və ya: ay camaat, niyə durursunuz, seçkiqabağıdır, gəlin gedək meriyaya şikayət edək, bu elektrik dirəyinin yanmış lampasını dəyişsinlər, bir aydır axşamlar evə kor kimi gedirik.

Axı bu bir lampa nədir ki, sən onu dəyişdirmək üçün oturub ildə bir dəfə seçkiqabağını gözləməlisən... Ümumiyyətlə, bütün bu işləri görmək üçün seçkiqabağını gözləməli olduğunu kim deyib, harada yazılıb?.. Nə fərqi var axı – seçiqabağı oldu, ya seçkidalı, hökumət öhdəliyində olduğu işləri vaxtı-vaxtında görməlidir. Day sən də yanmış lampanı dəyişdirmək üçün seçkiqabağını gözləməməlisən. Sən seçkiqabağını demokratik seçkilərin keçirilməsi üçün gözləməlisən, hökumətdən minnətli iş xahiş etmək üçün yox...

Bu seçkiqabağı özbaşnalıqdır, dərəbəylikdir-nədir, sən onu gözləyib qanunsuz-qanunlu bütün işlərini məhz seçkilər yaxınlaşanda görməlisən. Bu şəraiti sənə kim yaradıb axı? Hökumətmi, özünmü?..

Məgər bilmirsənmi ki, yanmış elektrik lampasını dəyişdirmək üçün bir il seçkiləri gözləməyə ehtiyac yoxdur, elə lampanın xarab olduğu gün sən aidiyyatı orqanlara müraciət edə bilərsən. Ümumiyyətlə, sənin müraciətinə ehtiyac belə olmamalıdır, sən müraciət etmək fikrinə düşməmiş aidiyyatı qurumlar o lampanı dəyişməlidirlər. İndi deyəcəksən ki, bəlkə min dəfə müraciət etmişik, gəlib düzəltməyiblər, amma seçkiqabağı müraciət edən kimi gəlib düzəldirlər. Deməli, bu şəraiti sən yaratmısan, sənin kimilər yaradıblar. Deməli, sən tamhüquqlu vətəndaş kimi özünü elə aparmalısan ki, lampanın dəyişdirilməsi üçün nə seçkiqabağını, nə seçkiortasını, nə də seçkidalını gözləyəsən...

Yoxsa elə beləcə də davam edəcək – hökumət sənin yadına seçkiqabağı düşəndə, sən də hökumətin yadına seçkiqabağı düşəcəksən. Sən olacaqsan seçkiqabağı vətəndaşı, hökumət də olacaq seçkiqabağı hökuməti.

Nə isə... Seçkilər yaxınlaşır, oturub bir il yenə xarab olmuş lampanı dəyişdirmək üçün seçkiqabağını gözləməyəsən deyə sadəcə səsvermədə iştirak edib layiqli namizədə səs verməyin yetərlidir hələlik.

Dərdimizə bax, İlahi – lampa dərdi...

## TEA TSULUKİANİ VƏ GİORGİ AMİLAXVARİ İSTEFA VERİB



Tea Tsulukiani mədəniyyət və idman naziri vəzifəsindən istefa verib. Bu barədə T.Tsulukiani özü məlumat verib.

"Sabah mənim nazir postunda son iş günümdür. Bundan sonra mən parlamentdə fəaliyyət göstərəcəm" – deyə Tsulukiani bildirib.

Tea Tsulukiani hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının seçki siyahısında ilk onluqdadır.

Qeyd edək ki, Tea Tsulukiani 2012-ci ildə Baş nazir Bidzina İvanişvilinin kabinetində ədliyyə naziri olub. Daha sonra o, daha beş hökumət başçısının – İ.Qaribaşvili, G.Kvirikaşvili, M.Baxtadze, Q.Qaxariya və İ.Kobaxidzenin kabinetində nazir olub.

Həmçinin Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvari də öz vəzifəsindən istefa verib. Bu barədə Giorgi Amilaxvari sentyabrın 28-də keçirdiyi brifinqində məlumat verib.

Amilaxvari bundan sonra özəl sektorda çalışacağını deyib.



Qeyd edək ki, Giorgi Amilaxvari Gürcüstanın təhsil, elm və gənclər naziri vəzifəsinə 2023-cü il martın 20-də təyin edilmişdi.

## KOBAXİDZE BAYDENİN RƏSMİ QƏBULUNA DƏVƏT EDİLƏNLƏRİN SİYAHISINDAN ÇIXARILMASINA MÜNASİBƏT BİLDİRİB



Gürcüstan Baş naziri İrakli Kobaxidze ABŞ Prezidenti Co Baydenin rəsmi qəbuluna dəvət edilənlərin siyahısından çıxarılmasına münasibət bildirib.

Hökumət başçısı jurnalistlərə açıqlamasında ABŞ administrasiyasının bu addımının qeyri-ciddi olduğunu və müxalifəti dəstəkləmək məqsədi daşıdığını qeyd edib.

"Mən bu barədə xüsusi şərh verə bilmirəm. Bu qeyri-ciddidir, onlar üç gün əvvəl dəvət göndərdilər və daha sonra bunu ləğv etdilər. Bu bir növ müxalifətin xeyrinə atılmış humanitar addımdır, baxmayaraq ki, bunun müxalifət üçün də praktiki effekti olmayacaq. Bu mövzuda əlavə şərh vermək mənim üçün çətin olacaq", – Kobaxidze deyib.

Qeyd edək ki, İrakli Kobaxidze ABŞ Prezidentinin BMT Baş Assambleyasında iştirak edən dünya liderləri üçün təşkil etdiyi ənənəvi qəbula dəvət edilib, lakin dəvət daha sonra Ağ Ev tərəfindən ləğv edilib.

"Amerikanın Səsi"nin məlumatına görə ABŞ Prezidentinin administrasiyası eyni zamanda Gürcüstan nümayəndə heyəti ilə nəzərdə tutulmuş bütün görüşləri də ləğv edib. Nəşr Ağ Evin bu qərarını Gürcüstanda "xarici agentlər" qanununun qəbul edilməsi, həmçinin QHT-lərə münasibət, Qərb əleyhinə ritorika ilə əlaqələndirib.

## ABŞ DÖRD GÜRCÜSTAN VƏTƏNDAŞINA SANKSİYA TƏTBİQ EDİB

ABŞ etiraz aksiyalarına görə, dörd Gürcüstan vətəndaşına qarşı sanksiya tətbiq edib.

Məlumata görə, DİN-in Xüsusi Təyinat Departamentinin rəhbəri Zviad Xarazişvili (Xareba) və onun müavini Mileri Laqazauri ilə yanaşı radikal sağçı şəxslər olan Konstantin Morqoşiya və Zurab Maxaradzeyə sanksiya tətbiq edilib.

"Birləşmiş Ştatlar bu gün Gürcüstanın demokratiyasına və gürcü xalqının insan haqlarına xələl gətirmiş bir sıra Gürcüstan hökumət rəsmiləri və digər şəxslərə qarşı geniş məsuliyyət tədbirləri tətbiq edir", – deyə məlumatda bildirilib.

Qeyd edək ki, Bayden administrasiyası daha əvvəl qanuna və etirazlara görə "Gürcü Arzusu" üzvlərinə, parlament üzvlərinə, hüquq-mühafizə orqanlarına və özəl vətəndaşlara viza qadağası qoyub.

# MEHRALI ABBASOV



Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində adları tarixdə qalmış şəxsiyyətlər çoxdur. Onlar soydaşlarımızın xatirəsində, yaddaşında gördükləri işlərlə və əməllərlə unudulmaz iz qoyublar. Haqlarında elmi və ensiklopedik ədəbiyyatda məlumatlar yetərincədir. Fikrimcə, belə şəxsiyyətləri gənclərə tanıtmaq vacib və zəruridir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində yüzlərlə görkəmli şəxsiyyətlər olmuş və olmaqdadır. Ölkəmizin Borçalı mahalı kimi tanınan tarixi torpaqlarında yetişmiş elm, mədəniyyət və ədəbiyyat xadimləri milli təfəkkürmüzün, zəngin mədəniyyətimizin yaranmasında öz töhfələrini vermişlər. Haqqında yazacağım görkəmli şəxsiyyətlərdən biri də Mehralı Abbasovdur.

Mehralı Abbasov 1935-ci il iyunun 15-də Bolnisi bələdiyyəsinin Siskala kəndində anadan olub və böyüyüb. Onun maraqlı və keşməkeşli həyatını bir örnək saymaq olar. Ziyalıların ön sırasında dayanan, vətənini, elini-obasını, onun torpağını, daşını belə sevən Mehralı Abbasov öz həmyerliləri arasında və onun hüdudlarından kənarda adı sevgi və hörmətlə çəkilən dəyərli insanlarımızdandır. Mehralı Abbasovun əzəli Siskaladan başlayan ömür yolunun coğrafiyası çox geniş və zəngindir. Bu yol onu hələ çox gənc ikən doğma Siskaladan Bolnisi şəhərindəki rus orta məktəbinə, oradan Kirovoqan (Qarakilsə) pedaqoji texnikumuna aparır. İlk pedaqoji fəaliyyətinə Bolnisinin Faxralı orta məktəbində başlayan Mehralı Abbasov çox keçmir ki, öz həmyerlilərinin yekdil qərarı ilə Siskala kolxozuna sədr seçilir. O, atası Məhəmməd kişinin yolunu davam etdirir. Mehralı müəllimin atası kəndin ilk müəllimi olub. O, öz bacarığı və təşkilatçılıq qabiliyyətinə görə yerli əhalinin hörmət və ehtiramını qazanır. Lakin tale yenidən onu ilk təhsil aldığı rus orta məktəbinə gətirib çıxarır. Burada Mehralı Abbasov ilk partiya təşkilatının katibi seçilir, oradan da pillə-pillə ucalaraq Bolnisi rayon Partiya Komitəsinin təlimatçısı, şöbə müdiri və katibi vəzifələrində çalışır. Daha sonralar partiya işində püxtələşmiş Mehralı müəllim Gürcüstan Kommunist Partiyasının tövsiyəsi ilə Moskva Ali Partiya məktəbinə göndərilib. Moskvadan qayıtdıqdan sonra Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsində inspektor, son illər isə Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri vəzifəsində işləyir.

Onun ictimai xadim kimi gördüyü işlərdən biri və ən önəmlisi təhsil istiqamətində olan fəaliyyətidir. Hazırda Muxrana (keçmiş Daşlıqullar), Balaxauri (keçmiş Siskala), Xidiskuri (keçmiş Həsənxocalı) kəndlərinin şagirdlərinin təhsil aldıqları Muxrana ictimai məktəbinin tikilməsi onun adı ilə bağlıdır. Bu məktəbin tikilməsi Mehralı Abbasovun böyük əməyi və əvəzsiz xidməti nəticəsində baş tutub. Məktəbin tikilməsi haqqında yerli əhalinin hər birinin bildiyi məlumatlar var. Onların dediklərinə görə, məktəbin Daşlıqullar, indiki Muxrana kəndində tikilməsi haqqında qərar verilibmiş. Qeyd etmək lazımdır ki, həmin ərazi Həsənxocalı (indiki Xidiskuri) və Siskala (indiki Balaxauri) kəndlərindən çox uzaq bir yer imiş. Ancaq Mehralı Abbasovun rayon rəhbərliyi və digər dövlət qurumları ilə əməkdaşlığı nəticəsində məktəb indi mövcud olduğu ərazidə tikilib. Demək istəyirəm ki, məktəbin yerləşdiyi ərazi hər üç kənd üçün çox əlverişli yerdədir.

Mehralı müəllimin böyük zəhməti və əvəzsiz xidməti nəticəsində tikilən məktəb Bolnisi bələdiyyəsinin ən yaxşı təhsil ocaqlarından biridir. Bu məktəbi bitirən gənclər ölkəmizin ən nüfuzlu ali təhsil ocaqlarında təhsil alırlar. Mehralı Abbasovun əməyi, millətinə sevgisi naminə tikdirdiyi məktəb minlərlə gəncin təhsil alması, gələcəyini qurmasında mühüm və əvəzedilməz rol oynayır. Qeyd etmək yerinə düşərdi ki, bu yaxın günlərdə Mehralı Abbasovun nəticəsi Murad Abbasov babasının tikdirdiyi Muxrana ictimai məktəbini uğurla bitirib və tələbə adını qazanıb. Murad Abbasov Tbilisi Dövlət Universitetində təhsilini davam etdirəcək. Belə gənclər yüzlərlədir.

Mehralı Abbasov ictimai xadim olmaqla yanaşı gözəl ailə başçısı olub. Onun üç oğul övladı vardır. Nəinki öz ailəsinin, eləcə də böyük və nüfuzlu bir nəslin başçısı olan Mehralı Abbasov insanların ümidi və qürur mənbəyi olub. Böyük ailə şəcərəsinin hörmətli, nüfuzlu və sevilən şəxsiyyəti kimi onun keçdiyi həyat yolu hamımız üçün örnəkdir. Dəyərli həyat yolunu "Siskaladan Bakıyadək" kitabında qələmə alan Mehralı müəllim gələcək nəslə zəngin mənəvi irs qoyub. Mehralı Abbasov kimi insanlar həyatda olmasalar da könüllərdə, xatirələrdə həmişə yaşayırlar və unudulmurlar.

**Leyla YUSİFOVA**

*Vətəndaş təhsili fənni üzrə müəllim*

# DÜNYANIN DƏLİLİYİNDƏN BİR NEÇƏ ÖRNƏK



Əlimə dünyanın ən bahalı spirtli içkilərinin siyahısı keçib. Nə gizlədim, siyahıdakı içkilərin qiymətini görəndən əlim üzümdə qalıb. Bəlkə görənlərin çoxunun dodağı da uçuqlayıb. Düşünürəm ki, onlara baxanda mən yaxşı qurtarmışam.

Bu siyahıya biz müxtəlif növ qidaları da əlavə edək ki, siyahımız sönük görünməsin. Digər tərəfdən də bu içkilərin yanının çərəzi-məzəsi də olmalı deyilmi? Üstəgəl, belə bahalı içklərin yanının bahalı, əksəriyyətin əlinin çatmayacağı təamları da olmalıdır ki, süfrənin mənzərəsi bütöv alınsın.

İndi sual oluna bilər ki, bu içkilər dadanlara canmı verəcək, bu qidalardan yeyənlər buynuzmu çıxaracaqlar? Onların çıxaracaqları buynuzlar kənardan gözlə görünməsə də, əslində suala buynuz çıxaracaqlar cavabı verməmiz daha doğru olardı. O üzdən ki, onların çıxardıqları buynuzların ağrısını hansısa yoxsul, hansısa aclıqdan zülüm çəkən öz canında, öz qanında hiss etməlidir. İndi mən qarşıma çıxan bir-iki məlumatı sizinlə paylaşım, siz də məsələdən az-çox xəbərdar olun.

Şüşəsi brilyantlarla bəzədilmiş və qiyməti altı milyon dollar olan "İzabella İslay" viskisini içənlər və ya onu hərracda əldə edib, bahalı içki kolleksiyasına əlavə edənlər buynuz çıxarmazlarmı? Buynuz da çıxararlar, lap yeri gəlsə quyruq da. Dünyanın batmışlığına bax ki, camaat sevdiyi xanıma birilyant qaşlı bir üzük ala bilmir, bu qudurmuşların içki şüşələrini belə bahalı ləl-cəvahirat bəzəyir. Altı milyon dollarla Gürcüstan kimi ölkələrdə 100 ailəni pis-yaxşı evlə təmin etmək mümkündür.

"Tekila Ley 925" içkisinin qiyməti də dodaq uçuqladır. Düzdür, onun qiyməti "İzabella İslay" viskisinə baxanda bir az insaflı görünür. Bir şüşə "Tekila Ley 925" hərracda nə az, nə çox 3,5 milyon dollara satılıb. Və "Tekila Ley 925" bu qiyməti ilə dünyanın ən bahalı tekilası ünvanına da yiyələnib. Az qala bu içki barədə ən əsas məlumatı deməyi unudurdum. Onun da şüşəsi brilyant və qızılla süslənib. Milyardlarla müqayisədə 3,5 milyon kiçik məbləğdir. Bunu mən də bilməmiş deyiləm. Amma belə bir məbləğlə Afrikada aclıq çəkən minlərlə insanı xilas etmək olmazmı? Ay sağ ol, olar da, hələ o tərəfə keçər də.

Siyahımızda qiyməti "Tekila Ley 925"lə müqayisədə xeyli ucuz, dəbdəbəli adı olan "Henry Dudognon Heritage" konyakı da var. Orasını da deyim ki, yüz yaşlı bu konyak müştərilərə təxminən 2 milyon dollara təklif olunur. Onun da şüşəsi brilyanta, qızıla tutulub. Sürmə bol olanda qaşa da, gözə də çəkmirlərmi? Zənginlərdə də daş-qaş o qədərdir ki, itin aşıqlısına çıxıb. Onlar da bu cür qiymətli daş-qaşı hara gəldi yapışdırırlar. Bir şüşə konyaka verilən 2 milyon dollarla yəqin ki, onlarla çarəsiz xəstəni ayağa qaldırmaq olardı.

Şotland viskisinin adı zatən məşhuri-cahandır, dillərdə dastandır. Şodland viskiləri arasında ən məşhuru "Makallen 1926" viskisidir. Dünyada viskisevərlərin ən çox daddıqları içkilərdəndir. "Makallen 1926"nın şüşəsi sonuncu hərracda 1,9 milyon dollara özünə müştəri tapıb. İndi bizi kimi insanların meyarları ilə ölçsək, bir şüşə viskiyə bu qədər pul vermək ağılsızlıqdır, dəlilikdir, adını siz deyin, şizofreniklikdir. Amma işıqlar altında bərq vuran "Makallen 1926" şüşəsini əldə etmək üçün dəridən-qabıqdan çıxan zənginlərin aləmində bu, cəmiyyətə çıxışdır, özünüifadə etməkdir, digər pullulara yanıq verməkdir, od qoymaqdır.

Bu siyahıda postsovet məkanına aid bir arağın da adı keçir. Düzdür, siyahının sonuncu – beşinci pilləsində özünə yer tapıb. "Russo Baltik" adlı bu araq yuxarıda adlarını çəkdiyimiz içkilərin yanında qiymət sarıdan toya getməli bir içkidir. Qiyməti cəmi 1,2 milyon dollardır. Bu arağı "Russo Baltik" avtomobil şirkəti ilə Qazaxıstandan olan şahzadə Regina Abdurəzzaqova birgə istehsal edir. Bu Reginanın də nəyin, kimin şahzadəsi, nə canlı-cinli olmasını mən yerli-dibli bilmirəm və düzünü desəm, heç bilmək də istəmirəm. Hə, gəldik, "Russo Baltik"i xüsusiləşdirən nüanslara. Bu arağın şüşəsi qızılla, birilyantla bəzədilib və digər bahalı içkilərdən bir fərqi də odur ki, qapağı ağ qızıldan hazırlanıb. İnan ki, bu araqdan dadanlar ya gecə öləcək, ya da gündüz. Bu da homopostsovetukusun dünyanın içki aludəçilərinə hədiyyəsi. Di gedin işinizin dalınca. Bəs rusu bəyənmirdiniz? Aldınızmı payınızı?

İndi mülahizələrimizin başını başqa səmtə döndərək. Yuxarıda adını çəkdiyimiz spirtli içkilərin yalnız bir şüşəsinin təsvirini verdim. Təkcə bir şüşə içkinin qiymətindən söz açdım. Adı dünya ilə bir olan bu içkilərin istehsalçıları hər içkidən tək bir nüsxəmi hazırlayasıdırlar? Əsla. Onlar bu içkiləri nə qədər özəl hazırlasalar da, onların sayı onlarla, yüzlərlə olmalıdır. Heç xüsusi statistikaya gərək də yoxdur. Aşağı əllə götürsək, bu içkilərin hər birindən azı min şüşə istehsal olunur. Niyə belə düşündüyümü də deyim ki, məsələ aydınlığa çıxsın. Hər il dünyada sərvəti milyard dolları keçənlərin sayı artmaqdadır. Milyardlıq sərvətə sahib olanlar özlərinə dəyəri bir neçə milyon dollar olan içkinimi əsirgəyəcəklər? Adamın heç inanmağı gəlmir.

Bizim hesabımızla adını çəkdiyimiz içkilərin hər birinin dəyərinin min mislinə bərabər delikat içki istehsal olunur ki, bunun toplam məbləğini hesablamağa da mənim nə vaxtım, nə də hövsələm var. Üstəgəl onların içki süfrəsini bəzəyən təamların haqq-hesabını da aparsaq, aldığımız məbləğin nə qədər heyrətləndirici olduğunu görəcəyik. Ərz etdiyim kimi, mənim belə bir hesablama aparmağa həvəsim yoxdur.

S. A.

Müəllif utana-utana bir etitafda bulunub, yazıya son vermək istəyir.

Kasıbın işi-gücü oturub varlının pulunu hesablamaq deyilmi? Bir də adama deməzlərmi sənə nə? Varlığa nə darlıq? Pul əl çirkidir, hara xərcləmək lazım gəldiyini sənəmi qənəşəcəklər? Bax, zənginlər yaxamdan yapışıb, bunları bir-bir üzümə desələr, nə cavab verəcəyimi bilmirəm.

**Afiq MUXTAROĞLU**

*21 sentyabr 2024-cü il*

# BU İL İLK DƏFƏ OLARAQ 12-Cİ SİNFƏ VƏTƏNDAŞLIQ FƏNNİ DAXİL EDİLƏCƏK



2024-2025-ci tədris ilində XII sinfə vətəndaşlıq fənni və vətəndaşlıq təhsili layihəsi daxil ediləcək.

Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsilin İnkişafı Departamentinin rəhbər müavini Mariam Çikobava tədris başlamazdan əvvəl yayımlanmış məktubda qeyd edir ki, "Gürcü dili və ədəbiyyatı, Gürcüstan tarixi və Gürcüstan coğrafiyasının tədrisi ilə yanaşı vətənpərvər, fəal, vətənin qayğısına qalan, tolerant, özünün və başqasının mədəniyyəti, ənənəsini qiymətləndirən, özünün və başqasının hüquqlarını tanıyan, dəyər verən, demokratik maariflənmiş insan olaraq formalaşmaqda məhz vətəndaş təhsilinin öyrədilməsinin böyük töhfəsi var".

***Şagirdlər hansı ideyalar və konseptləri öyrənəcəklər:***

"Bu il ilk dəfə olaraq 12-ci sinfə vətəndaşlıq fənni və vətəndaşlıq təhsili layihəsi daxil ediləcək. Nəticədə 3-cü sinifdən 12-ci sinfə qədər (III-IV – Mən və cəmiyyət, V-VI – Bizim Gürcüstan və VII-XII – Vətəndaşlıq) vətəndaş təhsili çərçivəsində bu ideyalar və konseptlər öyrənilir:

Şəxsi inkişaf və sosiallaşma, məsuliyyət, qayğı, Gürcüstanın etnik, dini və mədəni müxtəlifliyini dərk etmək və müxtəlifliyə müsbət münasibət formalaşdırmaq, demokratiya prinsiplərini həyat vəziyyətləri ilə əlaqələndirmək; özünün və başqalarının hüquq və vəzifələrini bilmək və qorumaq; öz baxışlarının, davranışlarının qiymətləndirilməsi və korrektə edilməsi, emosiyaların idarə edilməsi (özünü əks etdirmə); qısa və uzunmüddətli məqsədlərin müəyyən edilməsi; ideyaların formalaşdırılması və onun həyata keçirilməsi üçün zəruri addımların planlaşdırılması; könüllülük əsasında vətəndaş fəaliyyətində iştirakın vacibliyini dərk edərək demokratiya prinsipləri əsasında fəaliyyət göstərməyin zəruriliyini görmək; vətəndaş iştirakı; təşəbbüskarlıq və sahibkarlıq, maliyyə savadlılığı; davamlı inkişaf və onun prinsiplərinin başa düşülməsi; əsas hüquqi sənədlərə (Gürcüstan Konstitusiyası, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Uşaq Hüquqları haqqında Konvensiya) əsaslanaraq öz qərarlarının/fikirlərinin əsaslandırılması; cəmiyyətdə pozitiv dəyişikliklərə yönəlmiş ideyaların lobbiçiliyi və vəkilliyi, fərqli maraqların daşıyıcısı olan qruplarla və ya dövlət qurumları ilə əməkdaşlıq və sair".

***Vətəndaş təhsilində layihə nə deməkdir?***

"Layihəyə gəlincə, yəqin soruşacaqsınız ki, vətəndaşlıqla bağlı bu qədər işlərdən sonra hələ də vətəndaşlıq fənni üzrə layihəyə (X, XI, XII siniflərdə) ehtiyac varmı? Milli təhsil planı cəmiyyətin ehtiyaclarına cavab verməlidir. Düşünürəm ki, bu gün vətəndaşlığı bu dozada öyrənməyə çox ehtiyacımız var. Vətəndaş layihəsində şagirdin daha da dərinləşdirmək istədiyi və ya məcburi vətəndaşlıq proqramı ilə əhatə oluna bilmədiyi ideyalar həyata keçirilməlidir. Bu baxımdan şagird-müəllimin araşdırma, axtarış, öyrənmək, başqalarını inandırmaq və əvvəlcə yerli, sonra isə qlobal miqyasda müsbət dəyişikliklər etmək azadlığı daha da çoxdur".

Mariam Çikobavanın sözlərinə görə, digər fənlərin standartları kimi, vətəndaş təhsili standartına da yenidən baxılıb və müzakirələr üçün ictimaiyyətə açıqlanacaq.

"Biz son formasını alıb təsdiqlənməmişdən əvvəl məmnuniyyətlə məktəb ictimaiyyətinin qiymətləndirməsini və rəyini gözləyəcəyik. Nə yaxşı idisə, itirilməyib və məncə, standart mövcud olandan yaxşıdır", – deyə Təhsil Nazirliyinin nümayəndəsi bildirib.

# GÜRCÜSTANIN ƏN BAHALI UNİVERSİTETLƏRİ




Gürcüstan dövlət universitetlərinin əksəriyyətində təhsil ödənişlidir və bu, ildə 2250 lari təşkil edir. Ancaq özəl ali təhsil müəssisələrində təhsil haqqı fakültələrə görə dəyişir. Onlardan bəzisi heç də ucuz deyil. Əgər hava gəmisini idarə etməyi öyrənmək istəsəniz 30000 lari ödəməli olacaqsınız. Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin göstəricilərinə görə, bakalavr proqramlarında ən bahalı universitet və fakültələrin siyahısı aşağıdakı kimidir:

• **Gürcüstan Aviasiya Universiteti:**

Kvalifikasiya: Hava gəmisinin idarəedilməsi üzrə bakalavr dərəcəsi (pilot).

İllik təhsil haqqı – 30000 lari.

• **San Dieqo Dövlət Universitetinin (SDSU) ingilisdilli bakalavr proqramı:**

Kvalifikasiya: Elektrik mühəndisliyi.

San Dieqo Dövlət Universitetinin bakalavr proqramları Gürcüstanın üç dövlət universiteti – İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Gürcüstan Texniki Universiteti, İlia Dövlət Universiteti ilə əməkdaşlıqla həyata keçirilir.

SDSU bakalavr proqramlarında təhsil haqqı ildə 7500 ABŞ dollarıdır. Universitet hər il çoxsaylı təqaüd verir və tələbələrə 25 %-dən 100 %-ə qədər maliyyələşdirmə təklif edir.

• **Qafqaz Universiteti:**

Kvalifikasiya: Biznesin idarəedilməsi. İllik təhsil haqqı – 8990 lari.

Biznesin idarəedilməsi vahid proqramı (ingilis dilində).

Kvalifikasiya: Menecment üzrə bakalavr təhsili. İllik təhsil haqqı – 21500 lari.

• **GIPA – Gürcüstan İctimai İşlər İnstitutu:**

Proqram: Vizual kommunikasiya (reklam və kommunikasiya dizaynı). Kvalifikasiya: Vizual kommunikasiyada incəsənət üzrə bakalavr təhsili.

İllik təhsil haqqı – 9500 lari.

• **Davit Tvildiani Tibb Universiteti:**

Kvalifikasiya: Diplomlu tibb işçisi.

• **Qriqol Robakidze adına Universitet:**

Kvalifikasiya: Diplomlu tibb işçisi (ingilis dilində).

İllik təhsil haqqı – 8000 lari.

• **Azad Universitet:**

Azad Universitetin bakalavr proqramlarına, Biznes Məktəbi (ESM), arxitektura və riyaziyyat, kompüter elmləri proqramlarından başqa təhsil haqqı 6950 laridir. Biznes Məktəbin, arxitektura, riyaziyyat və kompüter elmləri proqramlarına illik ödəmə 7950 laridir. Əgər tələbə qarşılıqlı maliyyələşdirmə sistemindən istifadə edirsə, illik ödəmədən 2000 lari azalır (4 il ərzində isə 8000 lari).

• **"New Vision" Universiteti:**

Tibb təhsili proqramı (ingilis dilində).

Kvalifikasiya: Diplomlu tibb işçisi.

İllik təhsil haqqı – 7500 lari.

• **Gürcüstan Universiteti:**

Biznesin idarəedilməsi (ingilis dilində).

İllik təhsil haqqı – 6000 lari.

• **Beynəlxalq Qara Dəniz Universiteti:**

Kvalifikasiya: Arxitektura (indilis dilində).

İllik təhsil haqqı – 5990 lari.

***Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytlarından götürülüb.***

***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# SƏN EY UŞAQLIQ...



"Alim olmaq asandır, insan olmaq çətin" məsəli bu gün nə öz dəyərini, nə də aktuallığını itirir. Qəribədir ki, buna bənzər misallar dünyanın bütün xalqlarında var. Görünən odur ki, bu atalar sözü eləbelə yaranmayıb. O da hamıya bəllidir ki, insan olmaq çətindir.

Son dövrlərdə cəmiyyətimizdə gənclər arasında baş alıb gedən xoşagəlməz halların – intihar, narkomaniya, qeyri-ənənəvi dinlərin təsirinə düşmək və başqa xoşagəlməz hadisələr hamını narahat edir. Ən əsası da hərəkət və davranışları. İstər-istəməz belə bir sual doğur: görəsən, belə halların çoxalmasının başlıca səbəbi haradadır, nədədir?

Kiminsə xoşuna gəlsə də, gəlməsə də, məlum məsələdir ki, nənə-babalarımız və ata-analarımız döyülərək böyüyən uşaqlar olublar. Mənim babam İkinci Dünya müharibəsini görmüş adam idi. O, hər zaman "bizim zəmanəmizin uşaqları belə deyildi" deyərdi. Daha sonra bu sözü atamdan eşitdim. Qəribəsi də odur ki, bu ifadəni indi mən də işlədirəm. Baxıram ki, indiki gənc nəsil ondan sonra yetişməkdə olan nəslə baxıb bu sözü işlədir. İstəsək də, istəməsək də, zaman dəyişir və bizim zamanımızda belə idi deyə o zamana uyğun hərəkət etmək məcburiyyətində də deyilik. O zaman uşaqlar dərs oxumamağın, nadinclik etməyin, sözə baxmamağın üstündə döyülürmüş.

Bir dəfə sadəcə adını bildiyim, müəllimlərimin dilindən həmişə tərifnaməsini eşitdiyim, biz hələ məktəbə yeni başladığımız illərdə məzun olmuş bir nəfərlə təsadüfən bir məclisdə tanış olduq. Xeyli söhbət etdik məktəblə bağlı, yetişməkdə olan nəsillə bağlı və s. Ona indiki böyüyən uşaqların davranış və hərəkətlərini heç bəyənmədiyimi, bizim kimi olmadıqlarını deyəndə gülümsədi. Sonra mənə dedi ki, mən də sizin yaşıdlarınızla bağlı eyni fikirdəyəm: "Biz onlar kimi olmamışıq, biz özümüzdən bir sinif yuxarı olan uşaqlara belə hörmətlə yanaşırdıq. Müəllimləri əvəz edən bizdən üç yaş böyük olan yuxarı sinif şagirdlərinə müəllim deyə xitab edən uşaqlar olmuşuq biz. İndi yetişən uşaqlar bizdən çox fərqlidirlər deyəndə yanılırsınız".

Məndən döyülüb-döyülmədiyimi soruşdu. Özümü döydürən uşaq olmadığımı, şiddətin tərəfdarı olmadığımı dedim. Amma mən döyülmüşəm dedi: "Bəlkə də uşaq yaşlarımdan döyüldüyüm, qadağalarla yaşadığım üçün bu gün öz əziyyətimlə bu səviyyəyə qədər gəlib çıxmışam. Bəlkə də uşaq vaxtı döyülməsəydim, bu qədər çalışmazdım. Təsəvvür et ki, məktəbdə dəcəlliyimizin üstə müəllim bizi döyürdü. Evdə onu valideynlərimizə etiraf etməyə çətinlik çəkirdik. Çünki evdə bunu deyəndə, üstəlik valideynlərimiz də bizi döyürdü. Deyirdilər, yəqin dərsdə bir günahın olub ki, müəllim səni cəzalandırıb. Bu gün elə bir sahə yoxdur ki, onun haqqında müəyyən bilgilərə sahib olmayım. Həm oxuyub, həm oynayıb, həm də uşaqlığımı yaşamışam".

Onun bu sözlərini eşidəndə kino lenti kimi hamısını gözümdə canlandırdım. Öz uşaqlıq xatirələrimi yada saldım. Əsas da bazar günləri. Bazar günləri bizimçün çimmək günü idi.Vannaya girməmişdən öncə anam mütləq onu sobada qızmış qaynar suyla doldurardı. Özü də anamızı əsəbiləşdirərkən başımıza dəyib danqıldayan qablarla çimərdik. Çimib qurtarandan sonra da odun sobasının yanında dayanardıq. Saçlarımızın, əllərimizin suyunu sobanın üstünə damızdırar, damcıların necə cızz edərək buxarlanıb yox olmasını izləyərdik...



Cümə günü tapşırılan dərsləri bazar günü axşam hazırlayardıq. Eyni peraşkini, bulkanı 2-3 nəfər yeyib, eyni suyu 3-4 nəfərlə içərdik. Hansısa dostumuz yediklərimizdən istəyəndə sevinərdik.

Küçədə, məhəllədə oynamaqdan doymazdıq. Quru pendir-çörəklə doyardıq. Yerə düşmüş çörək görəndə mütləq öpüb hündür yerə qoyardıq. Müxtəlif uşaq oyunları oynayardıq. Palçıqdan tort hazırlayıb üzərini çiçəklərlə bəzəyərdik, ağacın yarpaqlarından dolma bükərdik. Ən qəşəngini seçərdik...

O zamanlar biz çox şey öyrəşdik. Məsələn, "Tom və Cerri" cizgi filminin bitdiyini zənn edərkən yenidən nərildəyən şiri görmək bizi həyatın xoş surprizlərinə, həmişə bir ümidin olduğuna öyrətdi.

Qaçdı-tutdu oyununda həmişə qarşı tərəfə fora vermək bizə zəifləri əzməməyi, onlara güzəştə getməyi öyrətdi. Günəbaxan tumlarının əvvəlcə qabığını təmizləyib yığmaq, sonra hamısını birdən yemək bizə hər əziyyətin sonunda sürəcəyimiz keyfi öyrətdi. Ortada qaldı oyunu zamanı topu uzağa atdınsa, top qonşunun həyətinə düşdüsə, sən gedib gətirməli idin. Beləliklə etdiyimiz səhvlərin nəticələrinə qatlanmağı öyrəndik...

İndi həmin məhəllədə bizdən sonra böyüyən uşaqlar var. Hansı ki, heç biri bizim oynadığımız oyunları oynamırlar. Hamısı əllərində telefon oyun oynayırlar. On bir, on iki yaşını qeyd edənlər restoran davası döyürlər, yaşlarına uymayan geyimlər geyinirlər, bir-birlərinə bahalı hədiyyələr bağışlayırlar, müxtəlif pozalarda şəkillər çəkdirərək sosial medialarda paylaşırlar.

Heyrət içində baxıram. Bəzən də keçmişə qayıdıb gülürəm. Məktəbdə sinif yoldaşlarımızla anamızın aldığı plastik qablarda yediyimiz tortlar, qeyd etdiyimiz ad günlərimiz yadıma düşür. Ad günlərimizdə bir-birimizə hədiyyə olaraq hazırladığımız, xoş arzularımızı yazdığımız açıqcalar yadıma düşür...

Əvvəllər sentyabr ayı gələndə necə də sevinərdik, ailəlikcə məktəb bazarlığına gedib, məktəb üçün geyimlər alardıq, hələ evə gəlib sevincək onları geyinib sevincək evdəkilərə göstərərdik. Onda gözümüzün içi başqa cür gülərdi.

Kaş uşaq qalardıq, kaş gedən günlər geri gələydi...

Bəlkə də darıxdığım uşaqlıq deyil, o zamanlar dünyanı başa düşməməyim, edilən hər şeydən zövq ala bilməyim, beynimdə eyni anda minlərlə düşüncənin olmadığı anlardır. İnsanı incidən xatirələr deyil, o xatirələri bir də yaşaya bilməyəcəyini anlamaq, uşaqlığa bir daha geri dönə bilməyəcəyini bilməkdir.

Uşaqlıqda rənglər daha çox və dolğun idi, böyüdükcə rənglər solğunlaşdı. O zaman da problemlər və dərdlər var idi, ancaq onda heç nəyi anlamayacaq qədər uşaq idik.

Əziz valideynlər, uşaqlarınızın yalnız yaxşı təhsil almaları üçün çalışmayın. Yaxşı uşaqlıq yaşamış bir insanın gələcəyin ən parlaq fərdlərindən biri olmaması ehtimalı yoxdur. Əlbəttə, təhsil millətin gələcəyidir, amma tərbiyəsi, əqidəsi daha önəmlidir, bunu gözardı etmək olmaz. Bütün insanlar ali təhsilli ola bilməz. Hər kəs müəllim, həkim, hüquqşünas olmaq məcburiyyətində deyil. Bu ölkəyə santexnik, usta, aqronom, qəssab da lazımdır. İlk növbədə uşaqlara insan olmağı öyrətməliyik. Hansı peşənin sahibi olursan ol, əsas odur ki, insani dəyərləri itirməyəsən. Hətta bənna olsa belə, gərəkdir ki, işinin peşəkarı olasan. Şərt deyil ki, ali təhsil ocağına daxil olasan və diplom alasan. Bu gün o qədər insanlar var ki, əlində bir deyil, iki diplomu var, ancaq heç bir işə yaramırlar. Fəhlə belə olsan, gərək o sənətin peşəkarı olasan. Bizim üçün həyatda önəmli olan insanları biliklərinə görə deyil, sağlam əqidəsinə, etibarına, tərbiyəsinə görə seçməkdir.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# BÖYÜK ROLLARDA KİÇİK AKTYORLAR



Dərs çalışmaq və səs-küydən uzaqlaşmaq niyəti ilə parka getmişdim. Elə yenicə özümə münasib bir yer tapıb oturmuşdum ki, yanıma iki göyərçin gəldi. Çantamdan çıxartdığım yeməyi onlarla bölüşmək qərarına gəldim. Onlar yeməyə başlamamış üçüncü göyərçin də özünü yetirdi. Hiss elədim ki, üçüncünün gəlməyinə elə də sevinmədilər. İkisi üçün də xoş deyildi bu vəziyyət, amma görünürdü ki, birini daha çox hiddətləndirmişdi. Simit qırıntıları yerə düşərdüşməz birinci göyərçin sonuncunu uzaqlaşdırmaq üçün əlindən gələni edirdi. Bu hal təxminən yarım saat beləcə davam etdi. Sonda elə oldu ki, üçüncü heç nə yeyə bilmədən yanımızdan uzaqlaşdı. Görünür onun uzaqlaşması birincini olduqca sevindirmişdi. Bu, qanadlarını fəxrlə çırpmağından, başını sağa-sola qürurla çevirməyindən açıqca hiss olunurdu. Necə hiss olunmasın axı?! Nə də olsa, onun üçün önəmli olan bir mübarizəni qazanmışdı. O, qazandığı uğura sevinərkən mənim getmək vaxtım yaxınlaşmışdı.

Parka ən yaxın olan avtobus dayanacağına gəldim. Bir yandan hər şeyin yanımda olduğundan əmin olmaq üçün çantamı qarışdırır, bir yandan da bayaqkı hadisəni düşünürdüm. Üç ədəd göyərçinin insanı bu dərəcədə düşündürməsi, sadəcə mənə yox, sizə də qəribə gələrdi, məncə.

Avtobusda oturarkən belə bu göyərçinləri ağlımdan çıxara bilmirdim. Bir az yenə düşündükdən sonra, sanki indiyə qədər nəfəs almağı unutmuşdum, dərindən nəfəs aldım. Bəlkə nəfəs almağı unutmamışdım, amma bir şeyi anlamaq üçün baxmağın deyil, görməyin lazım olduğunu parkda bir anlığına unutmuşdum. Bu kiçik, ancaq önəmli detalı xatırlamaq məni yenidən həyata döndərmişdi. Daxilimdə dahicə yazılmış bir tamaşanı izləmiş, onun ən incə detallarını sonradan anlamış, ən azından anladığını düşünən birinin sevinci var idi.

Əslində nələr izah etməyə çalışıblarmış dedim öz-özümə. Nə qədər də fərqində olmamışam o an. Başqa vaxt incəlikdən danışan, hər şeyə diqqətlə baxmalıyıq deyən biri, indi böyük bir səhnəni gözü-qulağı bağlı izləyibmiş sən demə. Açığı özümə heç yaraşdırmadım...

Bir az sonra fərqinə vardım ki, gördüyüm səhnəni bu qədər yaddaqalan edən o səhnədə bizi, insanları görmək idi. Məni bu qədər təəccübləndirən isə aramızdakı bu oxşarlıq idi. Başda anlamamağıma səbəb bir məqamı diqqətdən qaçırmış olmağım idi. Bu kiçik detal sadə dillə izah edilmiş hekayəni anlaşılmaz etmişdi mənim üçün: sonda gələnə bir şey yeməyə imkan verməyən, onu oradan qovan göyərçinin özü də heç nə yeyə bilməmişdi. Mübarizədə iştirak etməməsinə baxmayaraq, bütün qırıntıları digər, üçüncü göyərçin yemişdi. İlahi, bu ki, gündəlik həyatımızdan qısacıq, amma hər şeyi izah edən bir detal idi!

İndi başa düşdünüzmü, bu kiçicik varlıqların mənə nə anlatmaq istədiklərini?

Bəzi insanlar bir işdə uğurlu olmaq istəmir, o işdə tək uğurlu olan o olsun istəyir. Bu istəklə hərəkət etdiyi andan etibarən özünü inkişaf etdirməyə yox, bu yolda addım atan insanların yoluna daş qoymağa yönəlir. Kimi isə məğlub etdiyini düşünüb sevinərkən özünün də bir şey qazanmadığının fərqinə varmır. Çünki özü də bilmədən onun hədəfi istiqamət dəyişir. Yavaş-yavaş xəbəri belə olmadan öz həyatında baş rol ikən başqalarının həyatında heç kəsin sevmədiyi pis qəlbli personaja çevrilir. O rolu qəbul etdiyi andan etibarən öz həyatından qovulur. Ancaq uzun yalvar-yaxardan sonra uzaqdan tamaşa etməyinə icazə verilir.

Ən sonda bəzi şeyləri qeyd etməyi özümə borc bilirəm. Ola bilsin mən hər şeyə gərəksiz məna yükləyirəm, gördüyüm sadəcə adi bir hadisə idi. Amma yenə də buradan səhnə müəllifinə və bacarıqlarına heyran qaldığım aktyorlara dərin təşəkkürümü bildirirəm.

Bu kimi tamaşalar sizə də maraqlı gəlirsə, nəzərinizə çatdırmaq istəyirəm ki, biletlər satışda yoxdur, saat və yer dəqiq deyil, tamaşaçı sayı bəlli deyil, tamaşanın adını öncədən öyrənə bilmirsiniz, bitdikdən sonra özünüz tapmalısınız. Tələb etdikləri isə sadəcə səssizliyə riayət olunması və diqqətdir.

**Hürnisə ƏHMƏDOVA**
*Tbilisi Dövlət Universitetinin kimya fakültəsinin ikinci kurs tələbəsi*

# NİYƏ FƏRQLİ UŞAQLAR BÖYÜMÜR?



Məni çox düşündürürdü ki, niyə məhz yeniliklər əksər halda başqa ölkələrdə olur. Mən daha qədim kəşfləri yox, son dövrün yeniliklərini deyirəm. Yəni doğrudanmı ya bizim savadlı uşaqlar yoxdur, ya da onları yetişdirən məktəb?

Elə bu suallara cavab axtararkən günahkarı tapdım deyəsən...

Deyirəm, görəsən hansı valideyn uşağının nə istədiyi, nə düşündüyü, necə yaşamaq istədiyi ilə müdaxiləsiz maraqlanıb?

Bəzi uşaqların elə böyük xəyalları olmur, ancaq bəzirlərinin elə gözəl, rənarəng xəyalları var ki, ancaq bu möhtəşəm xəyallar üstündən ətrafı tərəfindən xətt çəkilir və bu uşaqların artıq həyata olan həvəsləri itir. O məsum xəyalları həm də onların sevincidir. Bir çox valideynlər övladı mən bura gedəcəm, bunu edəcəm kimi xəyallar quranda deyirlər: "Neyləyirsən, o boş işlər vaxt itkisidir, sənə onlardan xeyir gəlməz, boş-boş xəyallar quracağına dərs oxu".

Beləliklə o uşağın arzulara baxışını dəyişdirirsiniz. Kim bilir indiki zamanda boş xəyal qurur dediyiniz uşaq gələcəkdə nələrə sahib ola bilərdi, təbii, siz o uşağı istəyinə soyutmasaydınız. Bir çox uşaqların məhz bu sözlərə görə həvəsi itir və ətrafı kimi olur.

Elə bunlardan sonra uşaqlara gələcəkdə nə olmaq istəyirsən deyə soruşanda, yəqin ki, əksəriyyəti həkim, müəllim və ya bank işçisi deyəcəkdir. Niyə uşaqların hamısı həkim və ya müəllim olmaq istəyir? Düzdür, bu iki peşə də faydalıdır, fəqət ölkədə bu peşələr üzrə oxuyan çoxdur, niyə biri də fərqli peşə istəmir. İstəsələr də valideynlər buna sözləriylə mane olurlar və ya gənc yaşda evləndirib bütün xəyallarını dəryaların dərin və qaranlıq dibinə atırlar.

Bəlkə də universitetlərdə valideyn arzusu ilə tələbə olan o dünənki uşaqların içində onlarla rəssam, aktyor, polis, diplomat və s. olmaq istəyən gənclər var. Valideynlər "uşağımın əlinə diplon verdim, borcumdan çıxdım" düşüncəsiylə bəzən övladlarını arzularıyla bir xəyal qırıqlığına uğratdığını bilmir və ya bilmək istəmirlər. O uşaqlar isə həyat boyu qurduğu xəyalları gerçəkləşdirə bilməmə peşmançılığıyla yaşayırlar.

**Banu RAMİN**
*Marneuli rayonu Qacağan 1 saylı ictimai məktəbin 8-ci sinif şagirdi*

# ALEKSANDRE ORBELİANİ – XATİRƏLƏR

*(əvvəli ötən sayda)*

Berela belbağının altındakı ikiqat kəmərini çıxardı, həmin kəmərin açıq ağzını açdı, o kəmərin qoltuğu var idi, ora qoyduğunu çıxartdı və anama verdi ki, o da bir az hündürdən oxudu və oxuduqca göz yaşlarını hönkürmədən axıdırdı, amma acı idi. İndi isə ondan sonra həmin naməni xatırlayaq:

"Mənim şahzadə Teklem! Sabah Çumlağ kəndi yaxınlığında kaxetililər ilə rus qoşunu arasında döyüş olacaq. Markizə bütün tavadları çağırtdırdıq. O bizə dedi ki, indi hökmdara qarşı sədaqətiniz, sabah özünü göstərməyiniz bilinəcək və eyni zamanda o, bizimlə çox danışdı. Biz də əlimizdən gələni ona bildirdik. Atası rəhmətlik eşikağabaşı Tamaz nəsə ruslar barəsində danışıb (Bu Tamaz C.Orbeliani çar İraklinin bacısı oğlu eşikağabaşı Mamukanın oğlu idi). Markiz buna çox qəzəblənibmiş. Onun nalı biz gürcülərin başında çatlayır. Ruslar hamımızı hədələyirlər. Hərdənbir süngüyə keçirəcəklərini bizə moizə edirlər və hərdənbir də bir az bizi sığallayırlar. Lakin, bəli, az bir müddətə. Hamımız çox narahat olmuşuq. Məhz elə kəndirlə əl-qolu bağlanmışa, yəni hamımız tələyə düşənlərə bənzəyirik. Daha bilmirəm, anlamıram öz dostumu və yaxud yaxın qohumumu və ya da rusların göz qoyanı kimdir. Belə bir sirr, nəsə hiyləgərlik var bizdə. Bu mərhəməti bizə ruslar gətirib, bunu bizə əlavə edib, bundan başqa tamamilə heç nə. İndi bundan artıq heç bir istəyim yoxdur. Ola bilsin, siz və sizin uşaqlarınız xətərsiz qalasınız və ruslar da sizə yaxşı göz-qulaq olsun, mən də öz niyyətimi yerinə yetirim. Ruslarda şübhə yaratmamaq üçün və guya onlara sədaqətliliyim üçün sabah güclü döyüşün od-alovunun içinə girəcəyəm. Bəlkə məni öldürələr və yaxud bir təhər kiməsə özümü öldürtdürəm. Bunu orada sizin yanınızda olanda da etiraf etdim. Nə edim, mənim ürəyim rusların bizim boynumuzda oturmasına daha dözə bilmir. Mən bundan əlavə daha bir şey edə bilmərəm. Sabah kaxetililərin məğlubiyyətinə, ruslar tərəfindən onların qanının tökülməsinəmi baxmalıyam və buna yenə dözməliyəmmi? Tanrı hifz eləsin. Bizim o körpə uşaqlardan göz-qulaq olun. Bilirəm, göz-qulaq olacaqsınız, ağıllısınız və sizə ümid də edirəm. Bu naməni bizim Berela sizə çatdıracaq və bu əhvalatı da o sizə nəql edəcək. Bu naməni yandırın, saxlamayın. Bizim balaca balalarımızın üzündən sevgiylə öpün. Allah sizi öz himayəsində hifz eləsin.

Əsrlərlə uzaqlaşan sənin Vaxtanq Orbelianin".

O naməni sözbəsöz xatırlamıram, amma o məhz elə bu məğzdə yazılmışdır.

Təəccüblənirəm ki, o qorxmaz igidin əhvalatını Bereladan soruşmadılar – nə etdi, başına nə gəldi. Nəhayət, Berela birtəhər dedi ki, saldatlar onun qarşısına çıxdılar. Sən demə, o, daha iki saldatı qılıncla öldürüb və üçüncü dəfə isə onu öldürüblər.

Bu Kaxeti iğtişaşları zamanı şahzadə Aleksandrenin yanına kaxetililərdən adamlar və namə gələndə sevincindən qanad açaraq oradan çıxıb Axalsixeyə gəldi ki, (o zamanlar Osmanlının əlində idi) onu da ora qaçan qarapapaqlar (Borçalıdan qaçan tərəkəmələri burada qarapapaqlar adlandırırdılar) dövrəyə alıb ürəkağrısı ilə xahiş etdilər, qulluğunuzda hazırıq dedilər. Şahzadə də təşəkkür edərək icazə verdi. İyirmi il bundan əvvəl mənə danışan, o tərəflərdən o zamanlar bir daha buraya gələn Təhməzqulu ağanın söhbətini nəql edəcəyəm. Tatar (Azərbaycan – tərc.) dilində danışdı, gürcü dilini bilmirdi:

"İki yüz nəfər qoçaq, igid qarapapaq seçdim. Axalsixedən Məngilisə gəldik. Həmin vaxt Məngilis və o tərəflər tamamilə viran edilmişdi. Oradan gecə Kür çayının sahilində Diğom keçidinə çatdıq, Kaxetiyə doğru keçmək istədik, lakin Kür çox daşmışdı. Yaz vaxtları idi. Artıq nə edə bilərdik, yenə geri dönüb Məngilisə gəldik. Buradan həftədə iki dəfə adamlar göndərirdik, Kürün vəziyyəti barədə bizə xəbər gətirirdilər. "Yenə çox gəlir deyirdilər". Bizim Məngilisdə olmağımız və Kürün daşması xeyli uzandı. Bu ərəfədə azuqəmiz azaldı. Bir gecə Xudad bəyi (Xudad bəy Tiflis şəhərində yaxşı ailədən idi, tatar idi, şahzadə Aleksandre ilə birgə idi və gürcü dilini öz dili kimi bilirdi – oxumağı, yazmağı, danışmağı) yanıma çağırtdırdım, o mənə dedi:

– Təhməzqulu ağa, mən şahzadə Aleksandreyə deməyə ərk edə bilmirəm, mənə qəzəblənər, bəlkə sən səhər tezdən özün bildiyin kimi deyəsən ki, yeməyimiz daha yoxdur, yaxşı olar ki, yenə də Axalsixeyə qayıdaq, Kür çayının suyu azalanda



gələk, Kaxetiyə doğru yollanaq, yoxsa biz acların başına nəsə gələr.

O biri gün səhər şahzadə Aleksandrenin qarşısında dayandım, çox qəmginləşmişdim. Şahzadə məndən soruşdu:

– Təhməzqulu ağa niyə qəmginsən?

Əvvvəlcə mən ona bildirdim ki, heç bir şey olmayıb.

İkinci dəfə məndən soruşdu:

– Di, düzünü de, niyə məyussan?

Bu zaman hər şeyi danışmağa başladım və sakitcə Xudad bəyin tövsiyə etdiyini dedim. O, acıqla mənə cavab verdi:

– Təhməzqulu ağa, nə söyləyirsən, bu sənin fikrin deyildir, sənə Xudad bəy tövsiyə edib. Onun sözlərini deyirsən. Axı, bir de görüm, necə qayıdım? Yazıq kaxetililər yurdu uğrunda qan tökürlər və mənə ismarlayıblar ki, "Tez buyur gəl, başçımız olsun ki, yurd uğrunda qılınc çalaq". Bundan sonra mən necə qayıdım? Əgər istəyirsinizsə, sən və Xudad bəy gedin və mən burada acından ölüm. Mənim bir ovuc qanım və cəmdəyim harada istəyir olsun, canım çıxsa da buradan bir daha qayıda bilmərəm.

Mən ömrümdə belə biabır olmamışdım.

Bir şey deyə bilmədim, ölü kimi idim. Nəhayət, güclə səsimi çıxartdım və ərklə ona söylədim: "Ey şahzadə, narahat olmayın, ac qalmayacaqsınız, qadanız alım".

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR 2024-CÜ İL № 16 (211)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## PARLAMENT TƏHSİL NAZİRLİYİNƏ MİLLİ AZLIQLARLA BAĞLI TÖVSİYƏNİN İCRASI İLƏ BAĞLI GÖSTƏRİŞ VERMƏYİB



“Gürcüstanın Xalq Müdafiəçisinin 2023-cü ildə Gürcüstanda insan hüquq və azadlıqlarının müdafiəsinin vəziyyəti haqqında” məruzəsi ilə bağlı” Gürcüstan parlamenti 2023-cü il Xalq Müdafiəçisinin parlament hesabatında verilmiş fərdi tövsiyələri yerinə yetirmək üçün dövlət qurumlarına göstəriş verən qətnamə qəbul edib. Lakin digər 40 tövsiyə ilə yanaşı 4 konkret tövsiyənin yerinə yetirilmə tələbi yox idi. Tövsiyələrin ünvanı Gürcüstanın təhsil, elm və gənclər naziri idi.

***Həmin tövsiyələr bunlardır:***

- Məktəb dərsliklərinin maketlərinin məzmununun yoxlanılması prosesində şikayətlərə baxılması məqsədilə yaradılmış apellyasiya komissiyasının üzvlərindən biri qərar qəbul etmək səlahiyyətinə malik olan insan hüquqları sahəsində təcrübəsi olan ekspert müəyyən edilsin;
- Məktəb dərsliklərinin maketlərinin məzmununun yoxlanılması prosesində şikayətlərə baxılması məqsədi ilə yaradılmış apellyasiya komissiyası tərəfindən qərarların təsdiqlənməsi, həmçinin komissiya tərəfindən iclasa dəvət edilmiş şəxsin və ya şəxslərin qərarda tutduğu mövqenin təsvirini və onlar haqqında gəldiyi qənaətin əsaslandırılmasını da əhatə edir;
- Monitorinq prosesinin formalaşdırılması və inklüziv təhsil keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə məktəblər (eləcə də resurs məktəblər) tərəfindən inklüziv təhsillə bağlı həyata keçirilmiş daxili monitorinq nəticələrinə qarşılıq vermək;
- Yerli özünüidarələrlə əməkdaşlıq edərək milli azlıqların sıx məskunlaşdığı regionların bələdiyyə və kəndlərində mədəniyyət evləri, mədəniyyət mərkəzləri çərçivəsində həyata keçirilmiş maarifləndirici tədbirlərə texniki və logistika baxımdan dəstək göstərilsin.

“Təəssüf ki, ötən illərə nisbətən parlamentin qətnamədə təsvir etmədiyi tövsiyələrin sayı artıb. 2023-cü ilin qətnaməsində parlament Xalq Müdafiəçisinin illik hesabatının 23 tövsiyəsini təsvir etməyib. Bu göstərici 2022-ci ildə də 23 tövsiyədən ibarət idi. 2024-cü ilin qətnaməsində parlament Xalq Müdafiəçisi hesabatının 44 tövsiyəsini təsvir etməyib. Həmin tövsiyələrin siyahısı bu ərizənin əlavəsi olaraq təqdim olunub.

Təəssüflə qeyd olunmalıdır ki, indiki mərhələyə qədər parlamentdə insan hüquqlarının müdafiəsi və vətəndaş inteqrasiyası komitəsinin iclası keçirilməyib. İclasda parlamentin 2023-cü il qətnaməsi ilə verilmiş tapşırıqların həyata keçirilməsi müzakirə olunmalı idi.

Xalq Müdafiəçisi Gürcüstan parlamentini yerinə yetirmək üçün verdiyi vacib tapşırıqların icrasının monitorinq prosesində parlamentin nəzarət mexanizmlərini gücləndirməyə çağırıb. Öz növbəsində isə, tapşırıqların tam yerinə yetirilməsi məqsədi ilə hər hansı formatda dövlət qurumları ilə əməkdaşlığa hazır olduğunu bildirib” – Xalq Müdafiəçisinin məlumatında deyilir.

*Mənbə: edu.aris.ge*

## AZƏRBAYCAN ELM VƏ TƏHSİL NAZİRLİYİ GÜRCÜSTANDAKI AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏR ÜÇÜN 650 MİNDƏN ÇOX DƏRSLİK VƏ DƏRS VƏSAİTİ GÖNDƏRİB



Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Gürcüstanın azərbaycandilli orta məktəblərinə 2024-2025-ci tədris ili üçün dərslik və metodik vəsaitlər göndərib.

Dərs vəsaitləri sentyabrın 24-də Azərbaycanın Gürcüstandakı səfirliyinin vasitəsilə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinə təhvil verilib.

Qeyd edək ki, Azərbaycan Gürcüstanda yaşayan azərbaycandilli məktəbləri dərsliklərlə 1994-cü ildən etibarən təmin edir. Bu günədək Gürcüstana 650 mindən çox dərslik və digər metodik vəsaitlər çatdırılıb.

Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Ramiz Hacızadə jurnalistlərə açıqlamasında bildirib ki, Gürcüstanda Azərbaycan dilində təhsil alan şagirdlər üçün dərsliklər Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildən etibarən göndərilir. Ümummilli Liderimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanın Elm və Təhsil Nazirliyi tərəfindən bu il də Gürcüstana yeni dərsliklər göndərilib. Bu il 18 adda 23 min 960 nüsxə Ana dili və ədəbiyyatı dərsliyi, müəllimlər üçün metodik vəsait göndərilib. Bu dərslik və metodik vəsait Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin xətti ilə azərbaycandilli məktəblərə paylanacaq.

Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin məsul əməkdaşı Kaxa Xandolişvili jurnalistlərə müsahibəsində deyib ki, bu gün hər iki ölkənin müvafiq nazirlikləri arasında sıx əməkdaşlıq mövcuddur.

Əldə olunmuş razılığa əsasən Azərbaycanın Elm və Təhsil Nazirliyi Gürcüstandakı azərbaycandilli məktəblərə Azərbaycan dili və ədəbiyyat dərslikləri, eləcə də metodik vəsaitlər göndərir.

Onun sözlərinə görə, Azərbaycan Prezidenti Gürcüstanda yaşayan azərbaycanlıların problemlərinin həlli üçün Gürcüstan dövləti ilə müvafiq işlər görür. Dərsliklərin göndərilməsi də Gürcüstan azərbaycanlılarına dəstəyin və birgə əməkdaşlığın nümunəsidir.

## ÖTƏN İL 64 NƏFƏR YETKİNLİK YAŞINA ÇATMAMIŞ ŞƏXS ABORT EDİLİB



Ötən il Gürcüstanda 14884 abort qeydə alınıb. Abort olunanlardan 64 nəfəri yetkinlik yaşına çatmayanlardır.

Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, 5716 nəfər abort olunanlar 15-29 yaş arası, 2371 nəfər abort olunanlar isə 15-24 yaş arasındakılar olub.

2023-cü ilin abortla bağlı göstəriciləri 2022-ci ilin analoji göstəriciləri ilə müqayisədə azalıb. 2022-ci ildə 16619 abort halı qeydə alınıb ki, onlardan 83-ü yetkinlik yaşına çatmamış şəxslər olub.

*Mənbə: etaloni.ge*

Təsisçi: “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.